

# Böyük zəfərin memarları

***Azərbaycan tarixinə Vətən müharibəsi kimi daxil olmuş İkinci Qarabağ müharibəsində Milli Ordumuzun Ermənistan silahlı qüvvələri üzərində böyük qələbəsi 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam etmiş uğurlu əks-hücumun, düşməni sülhə məcbur edən “Dəmir yumruq” əməliyyatının məntiqi sonluğudur. Silahlı Qüvvələrimizin bütün növlərinin fəal iştirak etdiyi 44 günlük zəfər yürüşünün, Qarabağda itirilmiş torpaqlarımızın düşmən tapdağından sürətlə azad edilməsinin bünövrəsi 28 il öncə ulu öndərimiz Heydər Əliyevin yenidən hakimiyyətə gəldiyi zamandan qoyulmuşdur. O dövrdə bütün istiqamətlərdə, o cümlədən ordu quruculuğu sahəsində hər şeyi yenidən başlamaq, əvvəlki iqtidarların daxili və xarici siyasət sahəsində buraxdıqları səhvləri aradan qaldırmaq, həm də bütün bunları müharibə şəraitində, torpaqlarımızın bir-birinin ardınca işğal olunduğu çox ağır bir zamanda gerçəkləşdirmək lazım gəlmişdi.***

XX əsrin 90-cı illərinin başlanğıcında Azərbaycan xalqı müasir tarixinin ən faciəli dövrünü yaşamışdır. Həmin ərəfədə Ermənistan Respublikasında yaşayan bütün azərbaycanlılar minillər boyu yaşadıqları ata-baba torpaqlarından qovulmuş, evləri yandırılmış, əmlakları qarət edilmişdi. 250 mindən çox insan bütün yaşayış vasitələrindən məhrum edilmiş qaçqın kimi Azərbaycana pənah gətirmişdi. Elə o zaman Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün açıq çıxışlar başlamış, azərbaycanlılara, ümumiyyətlə bütün türklərə nifrət təbliğatı geniş miqyas almışdı. Ardınca da Dağlıq Qarabağ əraziləri və onun ətrafındakı 7 rayonumuz Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi. SSRİ rəhbərliyinin, Qərb dünyasında önəmli mövqe tutan erməni diasporunun və onların təhriki ilə Qərbin – xristian dünyasının hərtərəfli yardımları ilə gerçəkləşən işğal prosesində bu bölgələrdə yaşayan vətəndaşlarımız soyqırımına, qətl və qarətlərə məruz qalmış, sağ qalan 750 mindən çox insan isə öz evlərini tərk etmək məcburiyyətində qalmış, məcburi köçkünə çevrilmişdi. Beləliklə, müstəqilliyini yeni qazanan Azərbaycan Respublikası ərazisinin 20 faizini, özü də ən məhsuldar torpaqlarını, təbii ehtiyatları, faydalı qazıntıları ilə zəngin olan rayonlarını, 1 milyondan çox qaçqın və məcburi köçkünü sığınacaqla, zəruri həyat vasitələri ilə təmin etmək məcburiyyətində qalmışdı.

Birinci Qarabağ müharibəsinin ilk mərhələsində Azərbaycan xalqı könüllü dəstələr yaradaraq öz el-obasını, rayonunu müdafiə etmək üçün ölüm-dirim savaşına qalxmış, minlərlə şəhid vermiş, bir çox döyüşlərdə erməni silahlı dəstələrini məğlub etməyi bacarmışdı. Lakin o zamankı respublika rəhbərlərinin ordu quruculuğunda yol verdikləri səhvlər, öz şəxsi mənfəəti üçün asanlıqla milli mənafeyə xəyanət edən ünsürlərin fəaliyyəti son nəticədə bu müharibəni uduzmağımıza gətirib çıxardı. Azərbaycan xalqının həqiqi vətənpərvər və qeyrətli oğullarının düşmənə layiqli müqavimət göstərmələrinə, son damla qanına qədər doğma torpaq uğrunda igidliklə vuruşmalarına baxmayaraq, Milli Ordunun rəhbər heyətində respublikada ali hakimiyyəti ələ keçirmək iddiaları, ayrı-ayrı şəxslərin, siyasi partiyaların ambisiyalarına qulluq edən könüllü batalyonların hərbi nizam-intizama tabe olmamaları bir-birinin ardınca uğursuzluqlara düçar olmağımızı şərtləndirmişdi.

Yalnız ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının israrlı istəyi, təkidli tələbi, hərtərəfli dəstəyi ilə 1993-cü ilin iyun ayında yenidən ali hakimiyyətə qayıtması nəticəsində vəziyyət düzəlməyə başladı. Bu möhtəşəm qayıdışın, xalqın yenidən məhz ona güvənməsinin, ölkəmizin həmin zaman üzləşdiyi dərin ictimai-siyasi böhrandan, cəbhədə bir-birinin ardınca üzləşdiyi məğlubiyyətlərdən xilas edəcək son ümid yeri kimi baxmasının səbəbi Heydər Əliyevin 1970-ci illərdə respublika rəhbəri kimi insanların sonsuz inamını, etibarını qazanması ilə bağlı idi. Xalqımız öz ümummilli liderinə yenidən ona görə etimad göstərdi ki, o, yüksək təşkilatçılıq qabiliyyəti, sarsılmaz qətiyyəti və polad iradəsi ilə artıq bir dəfə xalqın ümidlərini doğrultmağı bacarmışdı.

Ulu öndərin yenidən ali hakimiyyətə gəlməsi ilə cəmiyyətdə hökm sürən xaos, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, güclü dövlətçilik strukturları yaradılmasına, iqtisadiyyatın bütün sahələrinin dirçəldilməsi üçün zəruri islahatlar həyata keçirilməsinə başlandı. Bütün bunların zəminində hərbi sahənin inkişafına xüsusi diqqət yetirildi, möhkəm nizam-intizama malik ordu quruculuğu işlərinə təkan verildi.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ordu quruculuğunda vəziyyəti kökündən dəyişmək üçün çox mühüm təxirəsalınmaz tədbirlər həyata keçirdi. Ölkənin hərbi siyasətinə ümumi rəhbərliyi effektli həyata keçirmək üçün 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Bu qurumun elə həmin gün keçirilən ilk iclasında ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə edildi, səfərbərliyin təşkili, hərbi hissələrdə döyüş hazırlığının, şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər müəyyənləşdiridi.

Ulu öndər 1993-cü il noyabrın 2-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətində məğlubiyyəti doğuran səbəbləri dərindən təhlil etdi, milli ordu quruculuğunda yol verilmiş səhvlər, xəyanətlər, cinayətkarlıq əməlləri haqqında məlumat verdi. Eyni zamanda, bu son dərəcə ağır vəziyyətdən çıxmış yolunu göstərdi: “Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. ... Biz müdafiə qüvvələrimizi hər cəhətdən gücləndirməliyik”.

Həmin il noyabrın 23-də Azərbaycanın ali qanunverici orqanı “Müdafiə haqqında” qanun qəbul etdi, ordu quruculuğunda məsul vəzifəli şəxs və qurumların fəaliyyət dairəsi, məsuliyyət sahələri dəqiqləşdirildi. Dövlət başçısının ciddi nəzarəti altında 36 yeni ehtiyat taboru yaradıldı, onlar sürətli hərbi təlim proqramlarına cəlb edildi.

Ümummilli lider öz şəxsi nümunəsi, Vətəninə, torpağına sonsuz sevgi və məhəbbəti ilə Azərbaycan xalqına milli qürur, vətənpərvərlik ruhu, döyüş qəhrəmanlığı ruhu aşıladı. Döyüşən orduda nizam-intizam möhkəmləndirildi, komanda heyətinə, hərbi əməliyyatların planlaşdırılmasına peşəkar və Vətənə sədaqətli zabitlər cəlb edildi. Cəbhədə vəziyyətin müsbət istiqamətdə dəyişməsinə zəmin yaradıldı. Bütün bunlar tezliklə öz nəticəsini verdi.

1993-cü ilin dekabr ayında erməni silahlı dəstələri Füzuli rayonunun şərqinə doğru hücuma keçməyə cəhd göstərəndə, Azərbaycan ordu birləşmələrinin o zamana kimi görünməmiş kəskin müqaviməti ilə qarşılaşdı və geri çəkilməyə məcbur oldu. Bundan sonra Azərbaycan ordusu hücuma keçdi. Dekabrın 15-də Azərbaycan hərbçiləri Horadizə doğru Arazboyu irəliləməyə başladı. Gərgin döyüşlər nəticəsində Azərbaycan hərbi birlikləri düşmənin müdafiə xətlərini dağıtdı, top atəşi və raket zərbələri altında sürətlə irəliləməyi davam etdirdi. 1994-cü il yanvarın əvvəlinə kimi Azərbaycan-İran sərhədi boyunca 40 kilometr uzunluğunda ərazi düşməndən azad edildi.

Tarixə “Horadiz əməliyyatı” kimi daxil olmuş bu döyüşlərdə iştirak edən silahlı qüvvələrimiz yanvarın 5-də bir gün ərzində qənimət olaraq 3 tank, 1 ədəd “Şturm-S”, 6 ədəd top, 6 ədəd top qoşqusu, 10-a yaxın nəqliyyat vasitəsi, çoxlu sayda atıcı silah və sursat ələ keçirdi. Düşmən ağır itkilər verərək və cəsədlərini döyüş meydanında qoyaraq geri çəkildi. Yanvarın 6-da isə Azərbaycan hərbi birlikləri düşmənin müqavimətini qırıb, döyüşlə Horadiz qəsəbəsəni, oradakı dəmir yolu stansiyasını və su anbarı üzərindəki bəndi ələ keçirdilər. Bütövlükdə, “Horadiz əməliyyatı” zamanı 23 yaşayış məntəqəsi, o cümlədən Horadiz qəsəbəsi düşməndən azad edildi. Bu, yenidən qurulan Azərbaycan Silahlı Qüvvələrinin ilk böyük uğurlarından biri idi.

Lakin düşmən hücumlarını uğurla dəf etmək və itirilmiş torpaqların geri alınmasını təmin etmək üçün yüksək hazırlıqlı, ən müasir silah və döyüş texnikası ilə təchiz edilmiş ordu yaradılması böyük xərc və zaman tələb edirdi. Ona görə də 1994-cü ilin mayında atəşkəsə nail olunması zəruri bir addım idi. Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işlərinin davam etdirilməsi, Orduya vahid rəhbərliyin təmin edilməsi, peşəkar hərbi kadrlarla gücləndirilməsi, hərbi hissələrin müasir müharibə aparılması tələblərinə uyğun hazırlanması üçün imkan yarandı.

Müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik edən ayrı-ayrı siyasi qüvvələr, hakimiyyət nümayəndələri düzgün siyasət yeritməyi, müstəqil Azərbaycanın xarici siyasət konsepsiyasını müəyyənləşdirməyi bacarmadılar. Həm siyasi hakimiyyət liderlərinin səriştəsizliyi, həm də yaxın və uzaq ölkələrlə normal xarici əlaqələrin qurulmaması bu illərdə Qarabağda baş qaldıran erməni separatizmi və işğalçılıq siyasətinin də dünyaya çatdırılmasında ciddi əngəllər yaratdı. Bu mənfi tendensiya ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə gəlməsinə qədər davam etdi. O, bütün istiqamətlərdə olduğu kimi xarici siyasət sahəsində də yeni dövrün tələblərinə uyğun şəkildə addımlar atmağa, siyasət həyata keçirməyə başladı. Bütün yaxın və uzaq ölkələrlə normal əlaqələr qurmağı xarici siyasətdə əsas prioritet hesab edən Heydər Əliyev İslam dünyası, ərəb ölkələri ilə əlaqələrə də xüsusi diqqət yetirdi, Bakı ilə müsəlman aləmi arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün önəmli addımlar atdı.

Həmin dövrdə İslam dünyası ilə əlaqələri inkişaf etdirmək, ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığa nail olmaq Dağlıq Qarabağ probleminin müsəlman aləminə, eyni zamanda ərəb ölkələrinin mövcud imkanlarından istifadə edərək bütün dünyaya çatdırmaq baxımından önəmli idi. Dağlıq Qarabağ münaqişəsi meydana gələn ilk illərdə Ermənistan beynəlxalq aləmdə belə bir yalan rəy formalaşdırmışdı ki, guya Azərbaycan Dağlıq Qarabağda xristian dinindən olan erməniləri orada sıxışdırmaqla məşğuldur və Qarabağda yaşayan ermənilər öz haqlarını tələb edirlər. Dağlıq Qarabağ probleminin dini münaqişə olmadığını sübut etmək üçün Azərbaycana İslam aləminin siyasi dəstəyi vacib idi. Eyni zamanda, Dağlıq Qarabağ münaqişəsindən zərər çəkən azərbaycanlı qaçqın və məcburi köçkünlərin zəruri ehtiyaclarını tamamilə ödəmək yenicə müstəqillik əldə edən Azərbaycan dövlətinin iqtisadi imkanları xaricində idi. Ona görə də, mühüm beynəlxalq humanitar təşkilatlarla yanaşı, İslam fondlarını, yardım cəmiyyətlərini də bu prosesə cəlb etmək, onların qaçqın və məcburi köçkünlərə dəstək göstərməsinə nail olmaq lazım idi və Heydər Əliyev iqtidarı bunu bacardı.

Ulu öndər 1990-cı illərdə peşəkar hərbi kadrlar qıtlığını aradan qaldırmaq üçün ilk növbədə keçmiş ittifaq respublikalarında hərbi xidmətdə olan azərbaycanlı zabitlərin Vətənə dönmələri üçün xüsusi diqqət və qayğı göstərdi. Bu illərdə Milli Ordunun gücləndirilməsi, Silahlı Qüvvələrin bütün növlərinin ən yeni silah və hərbi texnika ilə təchizi, eləcə də onları uğurla real döyüş şəraitində tətbiq etməyi bacaran, qabaqcıl hərbi strategiya və taktikaya yiyələnmiş hərbi kadrların hazırlanmasına diqqət artırıldı.

Heydər Əliyevin dövlətçilik fəaliyyətində çox mühüm, aparıcı sahə olan yüksək döyüş hazırlıqlı milli hərbi kadrlar hazırlanması üçün ən müasir standartlara cavab verən hərbi təhsil müəssisələri yaradılması istiqamətində çox mühüm tədbirlər həyata keçirildi. Azərbaycan Silahlı Qüvvələrinin müntəzəm şəkildə milli kadrlarla təmin olunması məqsədilə 1997-ci ildə Ali Hərbi Məktəb və Hərbi Aviasiya Məktəbi yaradıldı. Zabitlərin hərbi təhsilini artırmaları üçün 1999-cu ildə Hərbi Akademiyanın təşkili haqqında fərman verildi. 2001-ci ildə isə mövcud zabit heyətinin bilik bə bacarıqlarının təkmilləşdirilməsi üçün Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edildi. Türkiyə Cümhuriyyətinin hərbi quruculuq sahəsində zəngin təcrübəsindən və potensialından istifadə olunması genişləndi. Gənc azərbaycanlı zabitlər müasir hərb elminin incəliklərinə yiyələnmək üçün xarici ölkələrin nüfuzlu hərbi akademiyalarında təhsil almağa göndərildi.

1990-cı illərin ortalarında Rusiya Federasiyasının Ermənistana 1 milyard dollarlıq hərbi texnika, silah-sursat bağışladığı, bu respublikada ən müasir silahlarla təchiz edilmiş böyük baza yaratdığı bir şəraitdə Heydər Əliyevin çox böyük əzmi ilə maliyyə sıxıntılarına, beynəlxalq miqyasda Azərbaycana müasir silah və texnologiyalar satılmasına yaradılan manelərə və digər çətinliklərə baxmayaraq, hər fürsət dəyərləndirildi, ordumuzun ən yeni hərbi texnika və silahla təchiz edilməsi üçün gərəkli addımlar atıldı.

Heydər Əliyev böyük uzaqgörənliklə qarşıdakı müharibədə xüsusi hazırlıq keçmiş döyüşçülərin əsas rol oynayacağını bilirdi. Ona görə də, ABŞ-da rəsmi səfərdə olarkən orada elit hərbi güc sayılan dəniz piyadalarının xüsusi təlimləri ilə maraqlanmış, Azərbaycanda da bunun bənzərinin yaradılmasına nail olmuşdu. 44 günlük savaşda “qarapaltarlılar” və ya “dəniz pişikləri” adlanan Xəzər dənizi hərbi qüvvələrinin xüsusi təyinatlı dəstəsi böyük qəhrəmanlıq göstərdi. Bu dəstənin bir zabiti iftixarla bildirmişdi ki, “düşmənin 90-cı illərdə xalqımıza yaşatdıqlarını biz artıqlaması ilə onlara yaşatdıq”.

Bütün bunlarla bərabər Silahlı Qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Hərbi qulluqçuların əmək haqqı əsaslı şəkildə artırıldı, şəxsi heyətin ərzaq, maddi cəhətdən təminatı yaxşılaşdırıldı, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi sahəsində işlər aparıldı. Hərbi hissələrin maddi-texniki təchizatının gücləndirilməsi daim diqqətdə saxlandı, hərbi hissə binalarının, əsgər yataqxanalarının yüksək səviyyədə təmir edilməsi həyata keçirildi.

Azərbaycanın beynəlxalq miqyasda tanınması üçün ard-arda xarici ölkələrə səfərlər edilməsi, qonşu dövlətlərlə balanslaşdırılmış siyasət yürüdülməsi, dünyanın aparıcı dövlətlərinin nüfuzlu şirkətləri ilə “Əsrin müqviləsi”nin bağlanması nəticəsində ölkəmizin nüfuzunun artmasının təməli qoyuldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq birlik tərəfindən qəbul edilmiş sərhədləri daxilində bərpa edilməsi üçün gərgin diplomatik mübarizə başlandı.

Heydər Əliyev Azərbaycanın mürəkkəb geosiyasi məkanda yerləşməsini, bir neçə regional və qlobal güc mərkəzinin maraqlarının toqquşmasını nəzərə almağı, hərtərəfli ölçülüb-biçilmiş siyasət yürüdülməsinin labüdlüyünü zərgər dəqiqliyi ilə hesablamağı bacardı. O, respublikada ali hakimiyyətə gəldikdən dərhal sonra balanslaşdırılmış xarici siyasət kursu yürüdülməsinə keçdi, qonşu dövlətlərlə, ilk növbədə Rusiya, İran və Gürcüstanla münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə təkan verdi. Dünyada baş verən geopolitik dəyişikliklərin nəzərə alınması, qonşularla çoxşaxəli, tarazlaşdırılmış, sabit, davamlı, qarşılıqlı faydalı əməkdaşlıq kursu yeridilməsi Azərbaycanın mövqeyinin güclənməsinə gətirib çıxardı. Böyük dövlətlərin, xüsusən ABŞ və Fransanın Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünün qorunması, beynəlxalq hüquq normaları çərçivəsində həlli prinsiplərindən çıxış etmələrinə nail olundu.

Azərbaycanın təbii ehtiyatlarından, ilk növbədə Xəzər dənizinin karbohidrogen resurslarından istifadə imkanı yaradılması o zamankı xarici siyasət kursunun prioritet məsələlərindən biri idi. Bu, bir tərəfdən respublikamızın iqtisadi potensialını dəfələrlə artırmağa, digər tərəfdən də bütövlükdə Cənubi Qafqaz regionunda sabit inkişafa zəmin yaratmağa hesablanmışdı.

Ulu öndərin layiqli varisi İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra çox sağlam və möhkəm zəmində qoyulmuş təməllər üzərindən bu siyasəti əzmlə irəlilətməyə başladı. İlham Əliyevin prezidentliyi dövründə tarazlaşdırılmış, milli maraqlara söykənən qarşılıqlı faydalı tərəfdaşlıq siyasəti davam etdirilmiş, eyni zamanda xarici siyasətdə praqmatik və rasional prinsiplərə əsaslanılması, dövlətin iqtisadi və hərbi potensialının gücləndirilməsi zəminində hücum diplomatiyasından istifadə edilməsinə keçilmişdir. Bu illərdə Azərbaycanın xarici siyasət xəttində milli maraqların qorunması, heç bir dövlətə qarşı olmamaq, qonşu dövlətlərlə əməkdaşlığın dərinləşdirilməsi, respublikamızı sivilizasiyalararası dialoq məkanına çevirmək aparıcı yer tutmuşdur. Azərbaycan həm yaxın qonşularına, həm də qlobal güc mərkəzlərinə praktikada, gündəlik siyasi kursunda sübut etmişdir ki, beynəlxalq hüquq norma və prinsiplərinə dönməz şəkildə hörmət edir və həm siyasi, həm də iqtisadi sahədə öhdəliklərini tam şəkildə yerinə yetirən etibarlı tərəfdaşdır.

Son illərdə Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edərək, regionun ən güclü dövlətinə çevrilmişdir. İqtisadi yüksəlişin yaratdığı böyük maliyyə qaynaqları Azərbaycana öz ordusunu da modernləşdirib, gücləndirmək imkanları açmışdır. Rəsmi Bakı bütün bu imkanlardan maksimum səviyyədə yararlanmağı bacarmışdır. XXI əsrin ilk onilliklərində dövlət strukturlarının daha effektli işləməsi, iqtisadiyyatın bütün sahələrinin, xüsusən qeyri-neft sektorunun inkişafı, Silahlı Qüvvələrimizin ən müasir silah və hərbi texnika ilə təchiz edilməsi, informasiya-kommunikasiya sahələrində çox uğurlu addımlar atılmışdır.

Azərbaycan XX əsrin 90-cı illərinin əvvəllərində aparılan müharibədən ciddi dərs aldı. Müasir silah və hərbi texnikanın çatışmamasının, möhkəm nizam-intizamlı ordu quruculuğunda yol verilən nöqsanların uğursuzluğun əsas səbəbləri olmasından nəticə çıxarıldı. Vəziyyətin bütün çətinliyini dərk edən Azərbaycan xalqı bütün qüvvəsini topladı və XXI əsrin ordusunu qurmaq üçün bütün qüvvələrini səfərbər etdi. Bu işdə təbii ki, Prezidentimiz İlham Əliyevin misilsiz xidməti olmuşdur. Məhz onun gündəlik qayğı və diqqəti sayəsində Azərbaycan Respublikasının müdafiə xərcləri kəskin şəkildə artırıldı: Azərbaycan Respublikasının hərbi büdcəsi 2003-cü ildə cəmi 135 milyon ABŞ dolları həcmində idisə, 2015-cı ildə 5 milyard dollara çatdı ki, bu da Ermənistan Respublikasının həmin il üçün bütün büdcə xərclərindən 2 milyard dollar çoxdur. Belə böyük həcmdə vəsait ayrılması Silahlı Qüvvələrimizi hərb elminin və texnologiyasının ən son nailiyyətləri ilə təchiz etməyə imkan verdi. Azərbaycanın ən son silah və hərbi texnika ilə təchizatının, onları uğurla tətbiq edəcək müasir ordu quruculuğunun üstünlüklərini İsrailin, ABŞ-ın, Almaniyanın hərbi mütəxəssisləri, NATO-nun hərbi əməliyyatları planlaşdıran generalları təqdir etmiş, dünya hərb elminə çox mühüm yenilik kimi qəbul etmişlər. Bu, yüksək texnologiyalar və ondan da yüksək peşəkarlıq əsasında gerçəkləşən XXI əsrin müharibəsində qələbə qazanmağın Azərbaycan təcrübəsini öyrənməyin vacibliyini vurğulamışlar.

Məsələn, Almaniya Təhlükəsizlik Siyasəti Federal Akademiyasının yeni dərc olunmuş hesabatında II Qarabağ müharibəsinin təcrübəsinə mühüm yer ayırılmış, bundan nəticə çıxarmağın vacib olduğu vurğulanmışdır: “Əgər Bundesver (Almaniya ordusu) yaxşı təchiz edilmiş şərti rəqibə müqavimət göstərmək üçün operativ güc olaraq qalmaq istəyirsə, o zaman PUA-lar alınmalıdır. PUA-lar hərbi baxımdan əvəzedilməzdir”. Alman analitiklərin fikrincə, Azərbaycan Ordusunun uğurlu hava kampaniyasının əsas səbəblərindən biri döyüş meydanında, özəlliklə də elektromaqnit spektrdə üstün taktiki kəşfiyyat olmuşdur: “Məsələn, kəşfiyyat PUA-ları düşmən əsgərlərinin mobil telefonla şifrələnməmiş danışıqlarını tuta bilir, onların yerləşdiyi yeri müəyyənləşdirib, dərhal artilleriya, döyüş PUA-larının köməyi ilə hücum edirdilər. Ermənistanın istifadə etdiyi ənənəvi zenit kompleksləri bu taktika qarşısında praktik olaraq çarəsiz idi”. Mütəxəssislər bu müharibədən dərs çıxararaq, Almaniynın 2012-ci ildə ləğv edilmiş hava hücumundan müdafiə proqramını bərpa etməyə çağırıblar”.

Ordunu ən müasir silahlarla silahlandırmaq, inkişaf etdirmək ölkə başçısı üçün son illərdə çox vacib istiqamət olmuşdur. Azərbaycan Ordusu XXI əsrin 4-cü, 5-ci nəsil silahları və hərbi texnikası ilə silahlandırıldı. 2011–2015-ci illərdə Azərbaycan Avropa ölkələri arasında ən böyük silah idxalçısı idi. Həmçinin bu ən yeni silahları yüksək peşəkarlıqla tətbiq etmək üçün Azərbaycan Ordusunun intellektual cəhətdən inkişaf etmiş bilikli kadrları hazırlandı. Bunlar hamısı bir yerdə Azərbaycanın artıq yeni XXI əsrin tələblərinə cavab verən savaş taktikasına keçməsinə şərait yaratdı.

Digər tərəfdən, vaxtaşırı və mövsümi irimiqyaslı təlimlərin keçirilməsi də Ordumuzun döyüş hazırlığını yüksəltmişdir. Ordunun ən müasir silahlarla təmin olunması ilə paralel olaraq döyüş hazırlığının yüksəlməsində irimiqyaslı təlimlər vacib rol oynamışdır. Çünki ordu müharibəyə hazırlaşırsa, bu hazırlıq dövründə təlimlər həyati əhəmiyyət kəsb edir. Son onillikdə Azərbaycan Silahlı Qüvvələrinin bütün növləri ardıcıl şəkildə müntəzəm, həm də Türkiyə hərbçiləri ilə birlikdə hərbi təlimlər keçirdi. Yeni alınmış ən müasir silahlardan səmərəli istifadə bacarığı bu təlimlərdə yoxlandı, strateji vəzifələrin icrası mexanizmi, taktiki gedişlər təkmilləşdirildi. Elə bunun nəticəsi idi ki, 2017-ci ildə ABŞ-ın "Global Firepower" araşdırma mərkəzininə görə, Azərbaycan Silahlı Qüvvələri dünyada 50-ci, Cənubi Qafqazda isə ən güclü və hazırlıqlı ordu sayıldı.

Dövlətimizin başçısı 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində çox haqlı olaraq qeyd etmişdir: “Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. ... Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi”. Möhtərəm Prezidentimizin son 17 il ərzində bu və digər sahələrdə dərindən ölçülüb-biçilmiş, məqsədyönlü siyasəti, vaxtında atılmış müdrik addımları sayəsində İkinci Qarabağ müharibəsində – Vətən müharibəsində möhtəşəm qələbəyə nail olmuşuq.

Böyük qələbəyə önəmli addım 2016-cı ilin Aprel döyüşlərində atıldı. Aprel döyüşlərində qazanılan uğur həm Milli Ordumuzda, həm də bütövlükdə Azərbaycan cəmiyyətində ruh yüksəkliyi yaratdı, böyük zəfərin yaxın zamanda baş verəcəyinə inam aşıladı. Dörd gün davam edən döyüşlərdə Ermənistanın 300-dən çox hərbçisi məhv edildi, 500-dən çox hərbçisi yaralandı. Ordumuz işğalda olan ərazilərin 2 min hektarını, o cümlədən çox mühüm hərbi-strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyini azad etdi. Bu döyüşlərdə Ermənistanın məğlubiyyəti erməni mediasında açıq şəkildə etiraf edilirdi: generallar da daxil olmaqla erməni hərbçilərin kütləvi fərarilik etməsi faktları ard-arda gündəmə gətirilir, Ermənistanın o zamankı prezidenti Serj Sarkisyanın Minsk qrupunun həmsədr ölkəsi olan Rusiyaya müraciət edərək, döyüşlərin dayandırılması üçün yalvardığı qeyd edilirdi. S.Sarkisyan 2018-ci ilin aprelində açıq etiraf etmişdi: “Aprel döyüşlərində ordumuzun zəif olduğunu gördük”.

*(ardı 5-ci səhifədə)*

# Böyük zəfərin memarları



(əvvəli 4-cü səhifədə)

Aprel döyüşlərinin bir vacib məqamını da 1992-ci ilin mayın 8-də Şuşanı işğal etmiş erməni qüvvələrinin komandanı, o zaman qondarma "Dağlıq Qarabağ Respublikası"nın Müdafiə naziri, erməni təbliğatının "əfsanəvi komandos" adlandırdığı Arkadi Ter-Tadevosyan etiraf etmişdir. O, 2016-cı il Aprel döyüşlərindən sonra mətbuata açıqlamalarında bildirmişdi: "Azərbaycanın əsas məqsədi bizim qoşunlar və texnikamızın harada olduğunu öyrənmək idi. Hesab edirəm ki, Azərbaycan öz istəyinə nail oldu. Cəbhə xəttində baş verən hadisələr döyüşlə yanaşı kəşfiyyat xarakterli əməliyyat idi. Azərbaycanın əsas məqsədi bu məlumatları təhlil etmək və növbəti addımı atmaqdır. Biz onlara nə ilə cavab verdik? Gözlənilməzlik faktoru olduğundan biz bir neçə mövqe itirdik. Hesab edirəm ki, Azərbaycan genişmiqyaslı hücum qərarı verəcəyi təqdirdə faktiki olaraq başladığı işi davam etdirə biləcək...".

Doğrudan da Azərbaycan Silahlı Qüvvələri tərəfindən İkinci Qarabağ müharibəsinin elə birinci günü düşmənin hava hücumundan müdafiə qurğularının, komanda məntəqələrinin, raket komplekslərinin, ağır artileriya atəş nöqtəlirinin əsas hissəsi məhv edildi. Bununla da Ermənistanın 30 ilə yaxın müddət ərzində təkəbbürlə təbliğ etdiyi "keçilməz Ohanyan müdafiə xətti" çox qısa müddət ərzində darmadağın edildi.

30 ilə yaxın bir müddətdə, uzun illər ərzində müxtəlif formatlarda davam etmiş sülh danışıqlarının heç bir nəticə verməməsi, üstəlik, 2018-ci ildə Ermənistan cəmiyyətində soyğunçu "Qarabağ klanı"nın hakimiyyətindən xalqın narazılığı dalğasında hakimiyyətə gəlmiş baş naziri Nikol Paşinyanın təxribat xarakterli bəyanatları və addımları, həmçinin Dağlıq Qarabağdakı qondarma kriminal rejimin səngiməyən təhrikedici hərəkətləri diplomatiyaya olan son ümidlərin də üzərindən xətt çəkdi.

Erməni lobbisinin və Ermənistanı himayə edən dövlətlərin beynəlxalq informasiya məkanında təsirinin kifayət qədər güclü olmasının nəticəsi idi ki, Azərbaycana insan hüquqlarından, azadlıq və sülh kimi dəyərlərə hörmətdən bəhs edənlər, ötən 30 il ərzində erməni təcavüzü nəticəsində dədə-baba torpaqlarından didərgin düşmüş, yaxınlarını itirmiş bir milyondan çox azərbaycanlının acı taleyinə biganə yanaşıblar. Beynəlxalq hüququn aliliyindən dəm vuranlar Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünün pozulması faktına eyni riyakarlıqla göz yumublar. Mədəni və dini abidələrə qayğı ilə yanaşmağı, qoruyub saxlamağı təbliğ edənlər erməni işğalında qalmış abidələrin vəhşicəsinə məhv edilməsi, məscidləri tövləyə çevirməklə milyonlarla müsəlmanın dini heysiyyatının təhqir edilməsi faktlarına biganə qalmışlar.

Ali Baş Komandanımız böyük qələbə müjdəsini – xalqımızın 30 ilə yaxın səbirsizliklə gözlədiyi Şuşanın azad edilməsi xəbərini hərbi geyimdə Şəhidlər xiyabanından bəyan etdi. Bu, hər iki Qarabağ müharibəsində şəhid olan hərbçilərimizə böyük hörmət və ehtiramın nümayiş etdirilməsi idi, torpaqlarımızın azadlığı uğrunda axıdılan qanların, verilən canların, Azərbaycan əsgərinin misilsiz igidliyinin yüksək qiymətləndirilməsi idi. Qarabağın müdafiəsi uğrunda döyüşlərdə həlak olanların qisaslarının alınması, canlarını fəda etdikləri torpaqlarımızın azad edilməsi müjdəsi, zəfər xəbəri idi.

Tanınmış hərbi ekspertlər Azərbaycanın əldə etdiyi qələbədə Türkiyə istehsalı olan "Bayraktar" və İsrail istehsalı "Harop" PUA-larının rolunu yüksək dəyərləndirirlər. Əlbəttə, PUA-nın müasir silah, döyüş texnikası növü olaraq əhəmiyyəti danılmazdır. Lakin təkcə PUA-lar bütün məsələləri həll etmədi. Birincisi, PUA-nın döyüş imkanları birbaşa hava şəraitindən asılıdır. Yəni hava şəraiti aydın olmalıdır ki, PUA-lar verilən tapşırığın öhdəsindən yüksək dəqiqliklə gələ bilsin. Lakin fəal döyüşlərin getdiyi ərazilər başdan-başa dağlıq və meşəlik ərazilər idi. Digər tərəfdən, hərbi əməliyyatların payız fəslində olması da, dumanda, çəndə hər zaman PUA-dan istifadə etməyə imkan vermirdi. Qələbədə hərbi texnikadan və əlindəki ən müasir silah və döyüş texnikalarından bacarıqla istifadə edən Azərbaycan hərbçisinin rolu əvəzedilməzdir. Bu müharibədə həlledici rol ilk növbədə sıravi əsgərindən komandanına kimi mütəşəkkil orduya məxsusdur. Məsələn, bizim ordumuzun Şuşaya hücumunu heç kim gözləmirdi. Düşmən düşünürdü ki, Azərbaycan Odusu cənubdan Laçına daxil olacaq, oradan da Şuşaya zərbə vuracaq. Lakin bütün təxminlərə zidd olaraq əsgərlərimiz sıldırım qayalara dırmaşaraq Şuşaya daxil oldular. Şuşa uğrunda gedən döyüşlərdə həlledici rolu nə ən yeni silahlar, nə PUA-lar, nə də başqa kənar təsirlər oynadı. Şuşa qələbəsinin başlıca sirri hərbçilərimizin yüksək peşəkarlığı, qələbə əzmi idi. Şuşada küçə döyüşlərində Azərbaycan əsgəri əlbəyaxa vuruşaraq düşmən üzərində qələbə qazandı. Bu da artıq Azərbaycan Ordusunun düşməndən yalnız texnikaya görə yox, əzminə, ruhuna, peşəkarlığına, igidliyinə görə də çox güclü olduğunu göstərdi.

Müharibənin ilk günlərində yüksək hərbi texnologiyalardan bacarıqla istifadə edilməsi sayəsində düşmənin çoxlu sayda hərbi texnikası, silah-sursatı, canlı qüvvəsi məhv edildi. Bu da, öz növbəsində, Azərbaycan Ordusunun şəxsi heyəti sırasında çox böyük ruh yüksəkliyi yaratdı. Düşmənin içərisində isə əksinə qorxu, təşviş doğurdu, fərariliyin kütləvi hal almasına gətirib çıxardı.

Bu müharibə igid oğullarımızın canı, qanı bahasına qazanılsa da, Silahlı Qüvvələrimizin ən müasir silah və texnologiyalarla təchizi və onların yüksək peşəkarlıqla yerində tətbiq edilməsi itkilərimizi minimuma endirdi. Xüsusi təyinatlı dəstələr və digər xüsusi hərbi bölmələrin cəsarət, qəhrəmanlıq və fədakarlığı, PUA və aviasiyamızın dəqiq zərbələri insan tələfatının minimal olmasında böyük rol oynadı. Əks təqdirdə bu cür geniş miqyaslı əks-hücum əməliyyatlarında itkilərmiz bundan 3-4 qat artıq ola bilərdi.

Azərbaycan əsgərinin yüksək döyüş ruhunu xarakterizə edən epizodlar: "Bir dəstəni kəndə hücum etməyə göndərirlər, az sonra arxalarınca dəstək qrupu gəlir və onları tapa bilmir; axtarırlar və xeyli gedəndən sonra qarşıda tapırlar, bəlli olur ki, onlar artıq 4 kəndi azad ediblər". "...Texnikalar vurulur, Şuşaya gedən yolu məhv olmuş zirehli maşınlar bağlayır və... Texnika ilə birgə piyada qüvvələri hücumu davam etdirsin deyə 20 yaşlı bir gənc döyüşçü URAL-a – tanka yox, məhz URAL-a oturub, o məhv olmuş texnikaları bir-bir vurub yoldan çıxarır, yolu təmizləyir və son anda, özü vurulanda da dayanmır, URAL-ı yoldan çıxarıb aşırır ki, yolu kəsməsin, arxasınca Ordumuz gələ bilsin!" Şuşa döyüşlərindən bəhs edən erməni əsgərləri də Azərbaycan Ordusunun döyüş ruhundan heyrətləndini belə ifadə etmişdi: "təxminən 400 əsgərlə hücuma keçmişdilər, vurduq, ardınca ikiqat, üçqat güclə gəldilər. Bir ölənin yerini ikisi, üçü tuturdu. Güllə ilə vururduq, sanki ağrı hiss etmirdilər, "zombi" kimi üstümüzə gəlirdilər...". Başqa bir erməni hərbçisi erməni mediasına heyrətini bu cür bildirmişdi: "Azərbaycan əsgərləri dəniz dalğası kimi gəlirdilər və ikinci dalğa birincidən daha güclü olurdu; Azərbaycan əsgərləri çiynindən, hətta sinəsindən yara alırdılar, ancaq qanı axa-axa hücum edirdilər. Onlar sanki terminator idilər".

Azərbaycan Prezidenti daxili və xarici siyasət sahəsində müdrik, uzaqgörən addımları ilə həm döyüş cəbhəsində, həm siyasi-diplomatik meydanda, həm informasiya mübarizəsində, həm psixoloji savaşda, həm də kəşfiyyat və təhlükəsizlik sahəsində çox böyük uğurlar qazanmağımızı təmin etmişdir. Azərbaycan əsgərinin canı, qanı bahasına qazandığı hərbi uğurlara paralel olaraq, Azərbaycan Prezidentinin Ermənistan rəhbərliyini daha bir önəmli mübarizə meydanında – beynəlxalq informasiya məkanında da tam məğlub etməsi ümumi qələbəmizin önəmli şərtlərdən biri olmuşdur.

Ermənistanın rəhbərliyi Qərb ölkələrində böyük təsir gücünə malik olan erməni lobbisinə və özünün xarici havadarlarına arxalanaraq dünyada informasiya savaşında dominantlıq yaratmağa çalışırdı. Bununla bağlı düşmən tərəf öz yalan, riyakar və ikiüzlü siyasətini beynəlxalq ictimaiyyətə sırımağa bütün mümkün vasitələrlə ciddi-cəhdlər edirdi. Ali Baş Komandan kimi Prezident İlham Əliyev döyüş cəbhəsində məharətli sərkərdə, informasiya cəbhəsində də çox bacarıqlı diplomat kimi ölkəmizin maraqlarını inamla və qətiyyətlə müdafiə etmişdir.

Ölkəmizin haqlı mövqeyini tutarlı arqumentlərlə əsaslandıran Prezident İlham Əliyev müsahibələrində Azərbaycana qarşı "feyk-nyuslar"ı ardıcıl şəkildə ifşa etdi, Ermənistanın yalan üzərində qurulmuş informasiya maşınına bir-birinin ardınca sarsıdıcı zərbələr vurdu. Məsələlərə operativ müdaxilə etdi və çevik reaksiya göstərdi, əsas hadisələri seçərək şəxsi nəzarətinə götürdü, vəziyyəti məqsədəuyğun şəkildə idarə etməyi bacardı. Ali Baş komandan kimi həm müharibənin davam etdiyi ağır şəraitdə, həm də müharibədən sonrakı dövrdə təzyiqlərin artdığı taleyüklü anlarda Azərbaycanın milli maraqlarının müdafiəsinin necə təşkil edilməsi ilə bağlı qətiyyətli mövqeyini ortaya qoydu. Dövlət başçısının istər daxili, istərsə də xarici auditoriya qarşısındakı çıxışları xalqın ürəyindən xəbər verdi, böyük rəğbət və sevgi ilə qarşılandı.

İkinci Qarabağ müharibəsi davam etdiyi günlərdə möhtərəm Prezidentimiz dünyanın 30-dan artıq aparıcı informasiya agentliklərinə, televiziya kanallarına: "CNN International", "CNN-Türk", "Sky News", "Euronews", "Əl-Cəzirə", "Əl-Ərəbiyə" kimi dünyanın əsas və nüfuzlu televiziya kanallarına geniş məzmunlu açıqlamalar verdi. O cümlədən də, Türkiyənin nüfuzlu "TRT Haber", Rusiyanın aparıcı "Rossiya-1", "Pervıy Kanal", RBK televiziya kanallarına müsahibələrində Azərbaycana qarşı qərəzli, gerçəkliyi təhrif edən xəbərləri ifşa etdi, Ermənistanın yalan üzərində qurulmuş informasiya maşınına ağır zərbələr vurdu.

Azərbaycan Prezidentinin çoxsaylı müsahibələri Qarabağ müharibəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində, informasiya müharibəsində ölkəmizə çox böyük uğurlar qazandırmışdır. Onun hər bir suala dəqiq, məntiqli, yoxlanıla bilən və faktlara söykənən cavabları ermənilərin və ermənipərəst qüvvələrin Azərbaycan haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib etməklə bərabər, erməni yalanlarını yayanları da yerinə oturtmuşdur. Bu olduqca vacib məsələ idi. İşğalçı Ermənistan əvvəlki dövrlərdə olduğu kimi İkinci Qarabağ müharibəsi dövründə də xarici havadarlarının və şəbəkələşmiş erməni lobbisinin yaxından dəstəyi ilə bu müharibə haqqında beynəlxalq səviyyədə dezinformasiya yaymağa çalışır, öz yalan, hiyləgər siyasətini ənənəvi və yeni auditoriyalara sırımağa ciddi-cəhd göstərirdi.

Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il noyabrın 6-da "BBC News"a verdiyi müsahibə ibrətamizdir. Təkəbbürlü BBC jurnalisti ilə bu, olduqca sərt müsahibə zamanı Prezidentimizin onu özündən razı və ağıl vermə manerasından imtinaya vadar etməsi, yerində oturtması böyük məmnunluq doğurdu.

BBC teleaparıcısının Şuşada xristian kilsə binasına bomba düşməsi ilə bağlı: "Deməli, Sizi heç bir yanlışlıqda günahlandırmaq olmaz? Hər şey feyk xəbərdir?" – sualına Prezident İlham Əliyev konkret faktlarla cavab verdi: "Əlbəttə, bu, feyk xəbərdir. Biz Qərb mediasını yaxından müşahidə edirik və bu qırx gün ərzində mənim bəlkə də, otuz müsahibəm olub. Onların hamısı çox aqressiv idi, sanki bu, müsahibə deyildi, sanki bir ittiham idi. Ermənistan tərəfində heç nə baş vermir. Heç kim Paşinyandan nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyini soruşmur. Nəyə görə o, 92 nəfəri qətlə yetirib? Nəyə görə o, Tərtərdə dəfn mərasiminə hücum edib? Nəyə görə onlar 21 insanı qətlə yetirərək və 70 nəfəri yaralayaraq Bərdəyə hücum etmək üçün kassetli bombalarla "Smerç"dən istifadə ediblər? Heç kim ondan soruşmur. Heç kim ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir".

Azərbaycan Prezidentinin xarici ölkə media qurumlarına verdiyi belə kəskin və arqumentli müsahibələri sayəsində Ermənistanın yalan informasiya yaymaq imkanları ciddi şəkildə məhdudlaşdırıldı. II Qarabağ müharibəsi gedişində beynəlxalq ictimaiyyət artıq Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20 faizinə qədərini 30 ilə yaxın müddət ərzində işğal altında saxlandığını, ermənilərin heç vaxt özlərinə məxsus olmayan qonşu dövlətin – Azərbaycanın BMT tərəfindən təsdiqlənmiş torpaqlarına iddia etdiklərini öyrənmiş oldular. Azərbaycan Prezidentinin ermənilərin Cənubi Qafqaza ilk gəlişi ilə bağlı tarixi faktlardan tutmuş, Dağlıq Qarabağ münaqişəsinə, Ermənistanın işğalçılıq siyasətinə qədər açıqladığı önəmli məqamlar beynəlxalq ictimaiyyətin həqiqətləri bilməsinə birbaşa imkanlar açdı. Savaş meydanında məğlub duruma düşən Ermənistan Respublikası beynəlxalq informasiya məkanında da tərksilah edildi. Bütün bunların müsbət nəticələri savaşın Azərbaycan ordusunun qələbəsi ilə bitməsindən sonra daha çox hiss olunmağa başladı.

Vətən müharibəsi zamanı Rusiyanın neytrallığına nail olmaq Azərbaycan Prezidentinin həm böyük diplomatik uğuru, həm də bu ölkənin informasiya məkanında cəmləşmiş erməni və ermənipərəst media mənsubları üzərində möhtəşəm qələbəsi idi. Bunu rusiyalı politoloq, Siyasi Araşdırmalar Mərkəzinin direktoru Sergey Markov "İnformasiya müharibələri. Qarabağ uğrunda döyüş rusiyalıların kütləvi şüurunda" mövzusunda Moskvada keçirilmiş dəyirmi masada çıxış zamanı etiraf etmişdir. Kremlə yaxınlığı ilə seçilən politoloq qeyd etmişdir ki, Rusiyada informasiya savaşında Azərbaycan Ermənistandan daha uğurlu təbliğat aparmışdır. Qarabağda hərbi əməliyyatların gedişində Ermənistan rəhbərliyi, sonradan etiraf edildiyi kimi, son dərəcə saxtalaşdırılmış formada məlumat verirdi: "Ümumiyyətlə, informasiya müharibəsinin nəticələrinə əsasən deyə bilərik ki, əvvəlcə Ermənistan böyük üstünlük qazanmışdı, çünki xristian ölkəsidir, çünki Rusiyadakı erməni diasporu azərbaycanlılarınkından daha güclü və daha nüfuzludur və Rusiya mediasında çox təsirli qüvvəyə malikdirlər. Ancaq bu üstünlük reallaşdırılmadı. Azərbaycanın ən mühüm uğuru ondan ibarət idi ki, əvvəlki dövrlərdən fərqli olaraq, indi Rusiya mediasında Azərbaycanın haqlı mövqeyini çatdıranlar vardı və onlar kifayət qədər səmərəli çalışırdılar. Əvvəllər informasiya müharibəsində erməni tərəfinin mütləq üstünlüyü var idi, indi belə mütləq üstünlük yox idi".

Azərbaycan Respublikası hələ əks-hücum əməliyyatından öncə işğalçı Ermənistan tərəfindən törədilən ardıcıl, məqsədyönlü təxribatları, o cümlədən informasiya təxribatlarını və erməni yalanlarını sistemli şəkildə ifşa etməyə, həqiqəti üzə çıxarmağa başlamışdı. 2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində hücumu zamanı və sonrakı dövrdə Azərbaycan Prezidenti bütün beynəlxalq platformalarda işğalçı Ermənistanın iç üzünü, təcavüzkar siyasətini açıb göstərmiş, bu dövlətin beynəlxalq hüquq norma və prinsiplərini tapdalamasını, Azərbaycana qarşı yeni işğal planları qurmasını bütün dünyaya duyurmuşdu. Bu baxımdan, Prezidentimizin BMT Baş Məclisinin 75-ci sessiyasındakı təsirli çıxışı xüsusilə böyük əhəmiyyətə malik olmuşdur. İlham Əliyev BMT-nin yüksək tribunasından bəyan etdi ki, Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmağa cəhd edir: "Ermənistanın məqsədi işğalla bağlı hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaqdır. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Onun "Qarabağ Ermənistandır." – bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. ... Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır".

Azərbaycan Prezidenti həmin çıxışında beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı ki, "Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırır. Ermənistan Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna – Mingəçevir su anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri olan və onlarla dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə hədələyir. ... Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik".

Prezidentimizin İkinci Qarabağ müharibəsi gedişində hər fürsətdə Azərbaycan Respublikasının bütün addımlarının beynəlxalq hüququn norma və prinsipləri əsasında atılması, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini icra etmək istiqamətində mübarizə aparmasını bəyan etməsi öz səmərəsini vermişdir. Bütövlükdə dünya birliyi, böyük dövlətlər Azərbaycanın haqlı davasını anlayışla qarşılamışlar.

Ermənistan Qarabağda 30 ilə yaxın müddətdə işğal edib nəzarətində saxladığı mövqelərini itirdiyinin fərqinə varınca daha da quduzlaşdı, döyüş əməliyyatları rayonunu genişləndirmək üçün fitnəkar addımlar atdı, Gəncə, Mingəçevir, Bərdə və cəbhə xəttindən xeyli uzaqda olan digər yaşayış məntəqələrinə raket zərbələri endirdi. İlham Əliyev soyuqqanlı, səbirli addımları, müdrik qərarları ilə bu məkirli planları pozdu.

Ermənistanın və havadarlarının təxribatlarının beynəlxalq səviyyədə ifşası bütün mümkün vasitələrdən istifadə olunmaqla, bugün də davam etməkdədir. Həm də bu iş özlüyündə ön cəbhədəki savaş qədər önəmlidir. Başqa sözlə, informasiya cəbhəsindəki mübarizə ön cəbhədə əsgərlərimizin göstərdiyi fədakarlıqları tamamlamaqdadır.

Azərbaycan ordusu 44 gün ərzində 5 şəhəri, 300-ə qədər kəndi və qəsəbəni düşmən tapdağından azad etmiş, erməni silahlı qüvvələrini sarsıdıcı məğlubiyyətə uğratmışdır. Bu o deməkdir ki, Azərbaycanın işğal edilmiş əraziləri döyüşlə geri alınmışdır. Azərbaycan ordusunun bu parlaq qələbəsi 2020-ci il noyabrın 10-na keçən gecə Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladıqları üçtərəfli bəyannamə ilə daha da möhkəmləndirilmişdir. Azərbaycan Prezidentinin polad iradəsi, qətiyyətli mövqeyi sayəsində qan tökülmədən, əlavə resurslardan istifadə etmədən, yerdə qalan torpaqlarımızın da çıx qısa müddət ərzində Azərbaycana qaytarılması məsələsi həll edilmişdir. Möhtərəm Prezidentimiz Azərbaycan xalqına 1 dekabr 2020-ci il tarixli müraciətində qürurla bildirdi: "Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq". Beləliklə, Azərbaycan Respublikası Ermənistanın XX əsrin 90-cı illərinin başlanğıcında havadarlarının hərtərəfli yardımları ilə işğal etdiyi torpaqlarımıza nəzarəti tam şəkildə bərpa etməyə, yüzminlərlə məcburi köçkünü öz evlərinə qaytarmağa nail olmuşdur.

Azərbaycan xalqı, Silahlı Qüvvələrimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ərazilərimizi işğaldan azad etmək uğrunda, insanlarımızın dədə-baba torpaqlarında, öz doğma yurdunda azad və müstəqil yaşaması üçün savaşda qalib gəlmişdir. 1990-cı illərin əvvəllərində itirilmiş torpaqlarımızın azad edilməsi təkcə yüzminlərlə məcburi köçkünün öz ev-eşiyinə geri dönməsi demək deyil, həm də qüdrətimizin nümayişidir.

Bu möhtəşəm qələbə, çox böyük bir uğurdur. Azərbaycan Prezidenti İlham Əliyevin böyük şəxsi zəfəridir. Müharibəni nə zaman başlamaq, nə zaman, hansı şərtlərlə dayandırmaq kimi taleyüklü qərar vermək, onun məsuliyyətini öz üzərinə götürmək çox güclü insani xarakterinin, vəziyyəti dəqiq təhlil etmək və düzgün nəticələr çıxarmaq qabiliyyətinin bariz göstəricisidir. Müharibəni ən əlverişli şəraitdə bitirmək çox böyük hünərdir. Digər parlaq göstəriciləri ilə bərabər, bu göstəriciyə görə də qələbəmiz mükəmməldir, dünya hərbi və diplomatiyası üçün çox qiymətli örnəkdir. Məhşur bir deyim var: "Müharibəni istədiyin zaman başlaya bilərsən, lakin istədiyin zaman onu dayandıra bilməzsən". Azərbaycan tərəfinin Şuşanın azad edilməsindən sonra hərbi əməliyyatları dayandırması ölkəmizin ümummilli maraqlarına tam uyğundur: Qarabağ bizimdir! Torpaqlarımızda ikinci erməni dövləti yaradılmasına yol vermədik!

Bu çox böyük zəfər, möhtəşəm qələbədir! Gələcəkdə də Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirəcək, onun regional lider kimi mövqeyini daha da möhkəmləndirəcək uğurdur.

***Qabil ƏLİYEV,***
***tarix üzrə elmlər doktoru,***
***Bakı Dövlət Universitetinin professoru***